**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**AYGÜN RAFİQ qızı BAĞIROVA**

# AZƏRBAYCAN TELEVİZİYASINDA ƏDƏBİ-DRAM VERİLİŞLƏRİNİN STRUKTUR PROBLEMLƏRİ

İxtisas: 6214.01- "Kino, tele və digər ekran sənətləri"

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun “Teatr, kino və televiziya” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Qulu Məmmədqulu oğlu Məhərrəmli**
Filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İlham Əziz oğlu Rəhimli**
Sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Nəsir Abbas oğlu Əhmədli**
Filologiya üzrə elmlər doktoru,
Əməkdar jurnalist, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Teatr Xadimləri İttifaqı**

Müdafiə “__” “________” 2018-ci il saat ____$^{00}$-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1065,Bakı şəhəri, İnşaatçılar prospekti, 39

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “__” “_________” 2018-ci il tarixində göndərilmişdir.

**FD.02.091 Dissertasiya Şurasının**
**elmi katibi, kulturologiya üzrə**
**fəlsəfə doktoru, dosent:** **F.R.Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsr mədəniyyətinin çoxşaxəli fenomeni hesab olunan TV kütləvi informasiya vasitələri sistemində dünyaya açılan pəncərə kimi cəmiyyət fərdlərinin, ictimai münasibətlərin, bədii yaradıcılığın, elmin, təhsilin və digər sahələrin problemlərini gündəmə gətirən, onların həlli istiqamətlərinə real güzgü ola bilən tribunadır. Bu gün ictimai-siyasi həyatda rolu getdikcə artan televiziyanın bir tərəfdən sosial-estetik informasiya daşıyıcısı olması, digər tərəfdən isə operativliyi və vizuallığı onu dövrümüzün ən kütləvi informasiya vasitəsinə çevirmişdir. İnternetin meydana çıxması isə TV-nın daha geniş auditoriyanı əhatə etməsinə səbəb olmuşdur.

Bütün bunlar onu deməyə əsas verir ki, TV həm kütləvi informasiya vasitəsi, həm də müəyyən bədii-estetik səciyyələrinə görə incəsənət növüdür. Milli dövlətçiliyimizin mühüm atributlarından olan, 70 ilə yaxın tarixi yol keçmiş Azərbaycan televiziyası "ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq prosesləri, dövlət siyasətinin mahiyyətinin xalqa çatdırılması, cəmiyyətin aktual problemlərinin müzakirəsi, günün nəbzinə uyğun verilişlər hazırlamaqla"[1] cəmiyyətin həyatına ciddi təsir göstərir. Deməli, TV "bütün dünyada həm sosial sistemdə gərəkli media vasitəsi kimi çıxış edir, həm də bədii-estetik funksiyanın daşıyıcısı kimi"[2] insanların bədii-estetik zövqünün formalaşmasında həlledici rol oynayır və bu missiyanı daha çox ədəbi-bədii verilişlərin vasitəsi ilə reallaşdırır.

Müasir TV "yaşadığımız dünyanı daha çox xəbərlərlə modelləşdirir. Bu xəbərlərin vasitəsi ilə tamaşaçılarda dünyanı qavramaq tərzi formalaşdırılır"[3]. Əslində proqramlarda önəmli yer tutan ədəbi-dram verilişləri də bu məqsədə xidmət edir. Bu verilişlərin yayımın əsas istiqamətlərindən birinə çevrilməsi, ekranda mövzunun bədii-estetik təqdimi, janr müxtəlifliyinin nəzəri-təcrübi təsdiqi və struktur problemlərinin öz həllini tapması televiziyanın inkişafına ciddi təkan verməkdədir. Bu səbəbdən də Azərbaycan mədəniyyətini və incəsənətini təbliğ edən milli televiziyamız geniş tamaşaçı auditoriyasında xüsusi nüfuz qazanmışdır.

---

[1] MehdiyevR.Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 7 oktyabr 2009.

[2] Məhərrəmli Q. Radioteatr dəvət edir. Bakı, Elm və təhsil, 2010, s.11

[3] Гаврилов К. Как делать сюжет новостей. СПБ., Пальмира 2017, стр.16

Müasir dövrdə respublikamızda nə qədər TV kanalları fəaliyyət göstərsə də öz zəngin tarixi, ənənəsi və yaradıcılıq təcrübəsi ilə seçilən Azərbaycan Televiziyası hər zaman ədəbi verilişlərə böyük önəm vermişdir. Milli televiziya çoxsaylı tamaşaçısına estetik dəyərlər aşılamış, həmçinin öz verilişlərinin intellektuallığı ilə ölkəmizdə yayımlanan digər televiziya kanallarından seçilmişdir.

Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin struktur problemlərinin tədqiq edilməsi və bu problemin elmi-nəzəri kontekstdə araşdırılaraq geniş tədqiqat obyektinə çevrilməsi **mövzunun aktuallığını** şərtləndirir. Bu gün televiziya kanallarının rəqabət şəraitində çalışması, həm də TV-nin internet kimi güclü rəqibinin meydana çıxması ekran məhsuluna (bədii verilişlər, xəbər süjetləri, sənədli filmlər, portret oçerklər, nəzəri diskussiyalar, tarixi araşdırmalar və s.) xüsusi həssaslıqla yanaşılmasını tələb edir. Çünki hazırda televiziya ekranına çıxarılan bir çox televerilişlər, xəbər süjetləri, sənədli filmlər, kliplər və s. sənət meyarları baxımından müasir tələblərə cavab vermir və tamaşaçı zövqünün formalaşmasına mənfi təsir göstərir. Buna görə də Azərbaycan televiziyasında bədii verilişlərin tarixini araşdırmağa, bu verilişlərin yaradıcılıq təcrübəsini öyrənib ümumiləşdirməyə və yaymağa ciddi tələbat hiss olunur. Mövzunun tədqiqi, ədəbi-dram verilişlərinin təhlili və elmi araşdırma müstəvisinə çıxarılması Azərbaycan sənətşünaslıq elmində yeni olaraq gələcək tədqiqatlara zəmin yaradır.

Ədəbi dram verilişlərinin dramaturji baxımdan özündə teatr və kino kimi sənət sahələrinin də müxtəlif estetik səciyyələrini birləşdirən struktur problemləri dövrün bədii-estetik və tarixi baxışlarını özündə ehtiva edir. Televiziyanın ədəbi-dram verlişlərinin elmi-nəzəri baxımdan araşdırılması, onun poetika səciyyələrinin formalaşmasına münasibət Azərbaycan sənətşünaslığının, bu sırada televiziyaşünaslığın vacib və əhəmiyyətli problemlərini daha çox aşkarlamağa imkan verir.

Azərbaycan televizyasında ədəbi-dram verilişlərinin struktur problemlərinin elmi-nəzəri kontekstdə tədqiq edilərək fundamental araşdırma şəklində təqdim olunması da mövzunun aktuallığını bir daha təsdiqləyir.

**Problemin işlənmə dərəcəsi** sənətşünaslığımızın son illərdə televiziyanın semantik təhlil problemlərinə göstərdiyi diqqətlə müəyyənləşdirilir və onun aktuallığı ilə birbaşa və müstəqim şəkildə əlaqələndirilir. Azərbaycan televiziyasının tarixi inkişaf mərhələləri, onun nəzəri-estetik problemləri, müxtəlif janrların təşəkkülü və təkamülü, TV-nin müasir mədəniyyət sistemindəki yeri və rolu barədə son illərə kimi

alim və tədqiqatçıların çoxsaylı araşdırmalarında[4] bu və ya başqa şəkildə elmi səviyyədə təhlil edilərək işıqlandırılmışdır. Bu tədqiqatların əksəriyyəti problemin tarix, filologiya və əsasən jurnalistika tərəflərini əks etdirir.

Azərbaycan televiziyasının təşəkkülü və inkişaf mərhələlərinin sırf sənətşünaslıq prizmasında, müəyyən estetik tələblər səviyyəsində öyrənilməsi vacib elmi-nəzəri məsələlərdən biridir. Azərbaycan televiziyasının fəaliyyəti və orada hazırlanıb nümayiş etdirilən bütün verilişlərin nəzəri, bədii, struktur prinsiplərinin tədqiqi bir daha sübut edir ki, televiziya mütəxəssislərinin müəyyənləşdirdiyi istiqamətlə yeni uğurlar qazanmaq və televiziyanın bədii irsindən bəhrələnmək zəruridir.

Televiziyanın ədəbi-dram verilişlərini təhlil edən həm Azərbaycan, həm də əcnəbi tədqiqatçılar tərəfindən aparılmış araşdırmalar həcm və yanaşma tərzindən asılı olmayaraq ədəbi-dram verilişlərinin bədii yaradıcılıq istiqamətləri haqqında müəyyən təsəvvür yaradır. Bu baxımdan Zeynal Məmmədlinin telejurnalistikanın prinsiplərini ehtiva edən "Danışan güzgünün sirri", filologiya üzrə elmlər doktoru, professor, kinoşünas Aydın Dadaşovun "Gerçəkliyin astanasında"; "Ekran dramaturgiyası: mövzu,

---

[4]Mehdi F. Televiziya jurnalistikası. Jurnalistika məsələləri. Bakı, Maarif 1972; Quliyev E. Televiziya iki əsrin ayrıcında. Bakı, İşıq, 1993; Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı, Şərq-Qərb, 2004; Məhərrəmli Q. Televiziya haqqında etüdlər. Bakı, Təhsil, 1996; Televiziya nitqi və ədəbi tələffüz. Bakı, Təhsil, 1999; Televiziya dili, Bakı, Elm 2003, Dadaşov A. Gerçəkliyin astanasında. Bakı, İşıq, 1992; Ekran dramaturgiyası: mövzu, struktur, üslub, janr. Bakı, Maarif, 1999; Dadaşov A, Məhərrəmli Q. Televiziya və radio tamaşaları. Bakı, Təhsil, 1999; Məmmədov Z. Danışan güzgünün sirri. Bakı, İşıq, 1985;Xudiyev N. Zamanın axarı ilə. Bakı, 2004; Radio, televiziya və ədəbi dil. Bakı, 2002; Əlibəyli E. Azərbaycan televiziyası. Bakı, MBM, 2005; Televiziya nəzəriyyəsinin əsasları. Bakı, Elm. 2011; Televiziya fenomeni. Bakı, Günəş, 2016; Talıbzadə A.Ustad və Ayna: ruhun, çinarın, telefonun ekran estetikası. Bakı, Çinar-çap, 2004. Əliyev E.Ə.. Müasir televiziya ekranı və sosio-mədəni mühitin qarşılıqlı təsir aspektləri: fəls. d-ru a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı, 2010; Hüseynova X.İ. Azərbaycanda televiziya tənqidi: filol. e. üzrə fəls. d-ru a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: Bakı, 2010; Abdullayeva Ü.B. Televiziya yaradıcılığının etik normaları: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı. Bakı, 2013; Nəsirova A.Ə. Televiziya məlumatının məzmunu və strukturu səmərəlilik amili kimi. filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı. Bakı, 2014; Yusifova K.H. Ekran publisistikasının inkişafında sənədli televiziya filmlərinin rolu: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı. Bakı, 2016;Əhmədova A.N. Azərbaycan televiziya məkanının formalaşması və inkişaf prosesi (telesistemin təkamül yoluna baxış); filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı, 2017; Babazadə O. Ekranda musiqi və səs. Bakı, Elm və Təhsil, 2017.

struktur, üslub, janr”; kitabları elmi-nəzəri cəhətdən böyük əhəmiyyətə malikdir. Bununla yanaşı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmlinin telejurnalistika sahəsində əldə etdiyi təcrübə və nəzəri qənaətlər müəllifi olduğu “Televiziya haqqında etüdlər”, “Televiziya nitqi və ədəbi tələffüz”, “Kino, televiziya, radio terminləri”, “İctimai televiziya”, “Televiziya dili” kitablarında öz əksini tapır. Daha bir maraqlı nəşr Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, professor Elşad Quliyevin “Televiziya: nəzəriyyə, inkişaf meylləri” adlı fundamental nəzəri-tarixi əsəridir. Azərbaycan televiziyasının təhlil metodologiyasının nəzəri cəhətlərinin müasir elmi müstəvidə tədqiqi sahəsində dəyərli əsərlərdən biri hesab olunan sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Əlibəylinin 2011-ci ildə nəşr etdirdiyi “Televiziya nəzəriyyəsinin əsasları” kitabı da hazırki tədqiqat üçün əhəmiyyətli mahiyyət kəsb edir. Qeyd edildiyi kimi, tədqiqatın gedişatında televiziya problemləri ilə məşğul olan əcnəbi müəlliflərin[5] də əsərlərindən elmi mənbə kimi istifadə olunub.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqat işinin başlıca məqsədi əsasən XX əsrin ikinci yarısında Azərbaycan mədəniyyəti kontekstində televiziyanın ədəbi-dram verilişlərinin yaranması, təşəkkülü və milli televiziyanın inkişafı problemlərinin təzahür formalarının mənzərəsini yaratmaq, mərhələ və istiqamətlərini müəyyənləşdirməkdir. Məqsədə nail olmaq üçün aşağıdakı elmi vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- İnformasiya mədəniyyəti sistemində televiziyanın yerini və əhəmiyyətinin müasir bədii-estetik, fəlsəfi-psixoloji mahiyyətini aşkarlamaq;
- Ədəbi-dram verilişlərini televiziyanın yayım siyasətində zövqləri formalaşdıran mühüm amil kimi təqdim etmək;
- Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin struktur problemlərini araşdıraraq televiziyanın bütün elmi-metodoloji işlərini, fəaliyyətini izləmək və sistemləşdirmək;

---

[5]Авраам Моль. Терия информации и эстетическое восприятие. М., 1966; Бабочкин Б.А. Работа актера в театре, кино и на телевидении. М., Искусство, 1972; Творогов А. Анализ литературнг призведения. Л.,1976; Петров Л. Массовая информация и искусство. М., Искусство,1976; Ж. Вилар. Внесите волшебный фонарь. 40 мнений о телевидении. М., 1978; Лихачев Д.С. Пэтика древнерусской дитературы. М., 1979; Багиров Э.Д. Методологические проблемы изучение средств массовой информации. Телевидение: вчера, сегодня, завтра. М., 1981; Багиров Э.Д., Карцев И.Н. Телевидение: ХХ век. М., Искусство, 1980; Муратов С.В. Кино как разновидность телевидения. М., 1971; Саппак В.Д. Телевидение и мы. М., Искусство, 1968; Турбин В.С. Режиссер радио и телетеатра. М., Искусство, 1983; Резников П. Литературный телеэкран. М., 1979; Марченко Т.Г. Телевизионный театр. М.: Искусство, 1983.

- Üslub və janr əlvanlığı üçün vacib elmi-nəzəri dəyərlərini müəyyənləşdirmək;

- Bədii təsvirin təsir güçünü, canlılığını, əlvanlığını artırmaq istiqamətində rəssam işinin əsas səciyyələrini ümumiləşdirmək;

- Dil-ifadə vasitələrinin vacib nəzəri-estetik xüsusiyyətlərini təhlil etmək;

- Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin struktur problemlərinin tarixini, təşəkkül və inkişaf tendensiyalarını araşdırmaq, xüsusən ədəbi-dram anlayışının formalaşdırılması sahəsindəki rolunu müəyyənləşdirmək;

- Elmi araşdırmaların milli TV-nin inkişafındakı rolunu müəyyən etmək, televiziyanın və incəsənətin inkişafı prosesindəki xidmətlərini hərtərəfli və obyektiv öyrənmək;

- Mətbuatda ədəbi-dram verilişlərinin təbliğinin rolunu vurğulamaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XX əsrin ortalarında yaranan televiziya, predmeti isə televiziyada ədəbi dram verilişləri və onun sturktur problemləridir. Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin bədii-estetik həlli, onun forma və janr prinsipləri, struktur problemləri əsas yer tutur. Bu problem bir sıra televiziya mütəxəssislərinin monoqrafiyalarında, elmi-tədqiqat əsərlərində, tədris vəsaitlərində, habelə çoxlu sayda məqalələrdə, resenziyalarda bu və ya digər şəkildə işıqlandırılıb. Tədqiqatın istər mövzu, istərsə də struktur problemləri mahiyyət etibarı ilə tamamilə yeni təhlil rakursundan araşdırılır.

Tədqiqatın predmetini həmçinn müasir Azərbaycan televiziyasında ədəbi-dram və musiqili verilişlərin forma və mövzu özəlliklərinə, eləcə də nəzəri-praktiki əsaslara elmi-nəzəri baxış və estetik təhlil təşkil edir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri əsasını tarixilik, sistemlilik, müqayisəli və tarixi-tipoloji təhlil prinsipləri təşkil edir. Eyni zamanda, istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycan televiziyasında ədəbi-dram verlişlərinin struktur problemlərinin əhatəli təhlili tədqiqatın nəzəri-metodoloji əsası kimi götürülür.

Tədqiqat zamanı xronoloji ardıcıllığa xüsusi diqqət yetirilmiş, araşdırılan problemlərin işıqlandırılmasına metodoloji baza qismində dünya sənətşünaslığının bir sıra alim və nəzəriyyəçilərinin estetika, kulturologiya, fəlsəfə elmləri sahəsində yazılmış fundamental tədqiqatlarına müraciət olunmuşdur.

Tədqiqat işində dünya bədii-estetik fikir sahibləri və incəsənət yazarlarından Aristotel, S.Eyzenşteyn, S.Freylix, F.Şiller, Alan Rosenthal,

F. Fradkin, Bualo, M.Boqdanov, B.Rındin, A.Meçeret, Rouz Redşinald, A.Yurovskiy, M.Kaqan, S.Svetana, S.Bernşteyn, M.Andronikova, İ.Zeman, L.Zinger, Akira Kurasava, E.Kruqlov, Ziqfrid Krakauer, B.Sappaq , A.Mitta, İ.Vaysfeld, A.Rixter, S.Qinzburq, S.Rassadin, A.Lipkov, M.Baxtin, E.Averbax, J.Bernar, L.Felonov, İ.Blauert, eləcə də yerli müəlliflərdən Zeynal Məmmədli, Elşad Quliyev, Aydın Dadaşov, Qulu Məhərrəmli, Elçin Əlibəyli, Aqşin Babayev, İlham Rəhimli, Aydın Talıbzadə, Oqtay Babazadə, Yaşar Qarayev, Yalçın Əlizadə və b. müəlliflərin əsərlərindən bəhrələnmiş, dissertasiyaya həm dünya televiziyasının verilişləri, həm də Azərbaycanda ədəbi-dram verilişlərinin yaradılması və sturkturu ilə bağlı fikirlər daxil edilmişdir.

Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin struktur problemlərinin təhlili zamanı milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən də istifadə edilmişdir. Telearxiv sənədlərindən, qəzet və jurnal materiallarından, televiziyanın yayım formalarından bəhs edən mətbu materiallara xüsusi diqqət yetirilmişdir. Dissertasiyada, həmçinin Azərbaycan tarixçilərinin, ədəbiyyatşünasların, sənətşünasların və televiziya jurnalistlərinin əsərlərində təcəssüm olunmuş elmi-nəzəri qənaətlər öz əksini tapmışdır.

Araşdırmalar XX əsrin sonu və XXI əsrin əvvələrində müasir sənətşünaslıq kontekstində multikulturalizmə əsaslanan milli özünəməxsusluqla nəzərdən keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi mövcud arxiv materiallarının üzərində aparılan təhlil-araşdırma nəticəsində əmələ gələn tam yeni elmi mənzərədə öz əksini tapır. Elmi yenilik bilavasitə problemin qoyuluşu və predmetə yanaşmanın elmi hüdudları ilə müəyyən olunmaqla əsasən aşağıdakı müddəalarda təzahür edir:

- Ədəbi-dram verilişləri müasir televiziya yayımının əsas elementi kimi ilk dəfə olaraq təhlilə çəkilmiş, bu verilişlərin bədii-estetik xüsusiyyətləri, mövzu, struktur, üslub, forma və janr özəllikləri, maarifçilik missiyası, TV-nın fəaliyyətinin təkamülü yönümündəki rolu ilə bağlı problemlər bədii yayımın funksiyaları kontekstində araşdırılmışdır;

-Tədqiqata cəlb olunan mövzu-problemin dramaturji xüsusiyyətləri, estetik prinsipləri küll halında, geniş şəkildə, elmi-nəzəri, tarixi aspektdə tədqiq və təhlil olunmuşdur;

- Ədəbi-dram verilişlərinin struktur problemləri bir sıra müasir dünya televiziyasının yaradıcılıq axtarışları ilə müqayisəli şəkildə aparılmaqla dərindən və hərtərəfli araşdırılmış, milli televiziyanın yaradıcılıq meyarlarının inkişafında bu verilişlərin rolu müəyyən edilimişdir;

- Azərbaycan televiziyasının ümumi yayım cədvəlində önəmli yer tutan ədəbi-dram və musiqili-əyləncəli verilişlərdəki yeni forma axtarışları, əlvanlıq, zaman-məkan xronotop amilinin bədii təcəssümü, özəl sistemliliyi, təsnifatı, bədii-estetik təsir parametrləri sənətşünaslıq baxımından səciyyələndirilmişdir;

- Ədəbi dram verilişlərində bədii zövqün formalaşdırılması problemlərinin əsas estetik, fəlsəfi, psixoloji və bu növ proqramların maarifçilik missiyasının bədiiliklə yerinə yetirilməsində, seçilmiş təqdimat forma və üsulları, musiqi tərtibatı, rəssam işi, operator və rejissor axtarışları bütövlükdə bədii yayımın funksiyaları kontekstində nəzərdən keçirilmişdir;

- Bədii mətnin televiziya materialına çevrilməsinə, başlıca spesifik sənət xüsusiyyətlərinin elmi-nəzəri modelinin formalaşmasına cəhd olunmuşdur;

- Araşdırmada milli televiziyanın ədəbi-dram verilişlərinin forma və məzmun xüsusiyyətlərinin inkişafına verdiyi töhfələr, yaratdığı ənənələr elmi cəhətdən ümumiləşdirilərək təsnif edilmişdir.

Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin struktur problemləri müstəqil mövzu kimi ayrıca araşdırılmamış, bu problem ilk dəfə təqdim olunan dissertasiyada sistemli və kompleks şəkildə tədqiqata cəlb olunmuşdur.

Dissertasiyada toplanmış zəngin və müxtəlif profilli elmi material müasir Azərbaycan televiziyasının, milli mədəniyyətimizin və incəsənət tariximizin öyrənilməsi üçün bu gün də müstəsna dərəcədə maraq doğurur. Belə elmi araşdırmalar sonrakı tədqiqatçılar üçün mühüm analitik material mənbəyidir. Çünki burada Azərbaycan televiziyasının bütün yaradıcılıq yolunun sistemli təhlilinin aparılmasına cəhd edilmişdir ki, bu da faktoloji zənginliyə geniş zəmin yaratmışdır.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Mədəniyyətimizin milli sərvətləri sırasında layiqli yer tutan televiziyanın mühüm sahəsi kimi ədəbi-dram verilişlərini ilk dəfə sistemli şəkildə araşdıran dissertasiya həm nəzəri, həm də təcrübi əhəmiyyətə malikdir. Problemin araşdırılmasıı nəticəsində əldə olunan elmi nəticə və qənaətlər əsaslı nəzəri və təcrübi əhəmiyyət daşıyır. Onlardan mədəniyyət və incəsənət təmayüllü ali və orta ixtisas təhsil ocaqlarının tədris prosesində, xüsusilə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Televiziya rejissoru", "Ekran dramaturgiyası" "Teatr sənəti", "Rejissor sənəti" kimi fənnlərin tədrisində yardımçı vasitə kimi istifadə oluna bilər.

Tədqiqat, həmçinin Milli televiziyanın tarixi və nəzəriyyəsi ilə məşğul olan gələcək alimlər üçün informasiya mənbəyi kimi faydalı cəhətlərə malikdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Teatr, kino və televiziya " şöbəsində yerinə yetirilmiş və müzakirə edilərək açıq müdafiəyə buraxılmışdır. Dissertasiya işinin ayrı-ayrı müddəaları yerli və xarici nəşrlərdə dərc edilmiş məqalələr və monoqrafiyada, elmi-nəzəri konfranslardakı məruzələrdə şərh etmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiyanın quruluşu və həcmi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tətbiqi qaydaları"na müvafiq olaraq hazırlanmışdır. Dissertasiya işi girişdən, iki fəsildə altı yarım fəsildən, nəticədən, ədəbiyyat siyahısından və videoqrafiyadan ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, nəzəri-təcrübi əhəmiyyəti, aprobasiyası, tədqiqatın həcmi və strukturu öz əksini tapmışdır.

**"Azərbaycan televiziyasında ədəbi-dram verilişlərinin yaranması və inkişaf mərhələləri"** adlanan birinci fəsil əsasən tarixi-nəzəri problemləri əhatə edən üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Televiziya yaradıcılığı və ekran sənətinin inkişafında bədii yayımın rolu"** adlanır. Burada ekran sənətində bədii yayımın rolu xüsusi vurğulanıb. Elmin və mədəniyyətin yaradıcı birliyindən meydana gəlmiş televiziya dünyanın başqa millətləri kimi bizim xalqımızın da həyatında müstəsna rol oynayır. Mənəvi-əxlaqi dəyərlərin mənimsənilməsində, müxtəlif yaş təbəqələrinə məxsus tamaşaçıların zövqünün formalaşmasında televiziyanın rolu böyükdür. Uzun illər ərzində televiziyanın topladığı zəngin təcrübə bu gün də inkişaf etməkdədir.

XX əsrin ən böyük kəşflərindən sayılan televiziya incəsənətin ayrılmaz hissəsi olaraq "həyat praktikamızı genişləndirir."[6] Televiziyanın inkişafı daim dəyişir və təkmilləşir. Hər hansı televerilişin missiyası tamaşaçını maarifləndirmək, elmi dünyagörüşünü artırmaq, onu dünya mədəniyyətinin nailiyyətləri ilə tanış etmək, onda yüksək zövq tərbiyə etməkdir.

---

[6]Гинзбург С. Очерки, теории, кино. М., 1974, стр.121

Televiziya yayımının incəsənətlə bağlı proqramlarında bədiilik geniş yer tutur. Bədiilik, həmçinin efirin imkanlarına məharətlə yiyələnərək gerçəkliyi sənətə xas olan bədii üsulla əks etdirən materialdır. Bədii yayım müasir efir siyasətinin əsas istiqamətlərindən biri olaraq daim özünün üslub formalarını dəyişir.

Milli kütləvi yayıma 1956-cı il fevralın 14-dən Nəcibə Məlikovanın aparıcılığı ilə başlayan televiziya 1958-ci ildən etibarən proqramlarda publisistik janra üstünlük verərək reportajların sayını artıtır. Bayram tədbirlərindən, iclaslardan, görüşlərdən birbaşa yayımlar reportajları zənginləşdirən amilə çevrilir. 1960–70-ci illərdə yerli televiziyada "Odlar diyarı", "Dostluq", "Zaman və biz", "Yaddaş: Tarixin səsi", "Tələbə klubu", "Şən və hazırcavablar klubu" kimi verilişlər yaranır.

80-ci illərdə Azərbaycan Televiziyasında "Günün ekranı", "Aşkarlıq", "Sizin istəyinizlə", "Arzular", "Səhər görüşləri", "Komediyalar aləminə səyahət", "Dialoq", "Dalğa", "Açıq-aşkar", "Aktual söhbət", "Publisist", "Inam", "Çay dəstgahı" və s. verilişlər mövcud idi. Bundan başqa, 80-cı illərdə "Dalğa" bədii-publisistik proqramının, "Ozan" folklor toplusunun, "Körpü", "Azərbaycan dili", "Karvan", "Azərbaycan dünya meridianlarında" və s. kimi proqlamların meydana çıxması milli şüurun oyanması işinə televiziyanın böyük töhfəsi idi.

"Azərbaycan müstəqilliyini qazandıqdan sonra ictimai fikrin formalaşması prosesində ekran sənətinin rolu get-gedə artmağa başladı"[7]. 1994-cü il, eləcə də sabitliyin hökm sürdüyü illər tariximizdə dövlətçiliyin möhkəmləndirilməsi dövrü kimi xarakterizə oluna bilər. Bu dövrdə Azərbaycan televiziyasının ekranında bir sıra yaddaqalan verilişlər hazırlandı. "Cəbhə xəttindən qayıtmışıq", "Milli qəhrəmanlarımız", "Qəhrəmanlıq albomu", "Bura Vətəndir", "Tarixin yaddaşı", "Bakı studiyası təqdim edir", "Həyat", "Keçid", "Gizli və aşkar", "Avtoqraf" və s. verilişlər məhz bu qəbildəndir. Maraqlı ekran forması, aktual mövzulara kəskin publisistik münasibət, parlaq müəllif mövqeyi ilə fərqlənən bu verilişlər sırasında "Postkriptum", "7 gün", "Təfsilat" "Həftəaşırı" kimi proqramlar televiziyanın yaradıcılığını inkişaf etdirmək baxımından xüsusi qeyd olunmuşdur.

Son illər ərzində Azərbaycan televiziya məkanını müasirləşmə mərhələsi kimi qiymətləndirmək olar. Televiziya kanalları bu dövr ərzində başdan-başa yeniləşmişdir. Televiziya qurumlarının maddi-texniki bazası, səs, işıqlandırma avadanlıqları, montaj qurğuları, çəkiliş kameraları təzələnmişdir. Nəticədə verilişlərin ideya-bədii məzmunu keyfiyyətcə

[7] Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı, "Elm", 2011.səh 11-12.

tamamilə modernləşdirilmişdir. Yeni studiya və pavilyonlar tikilmiş, bütün avadanlıqlar ən müasir formatda quraşdırılmış, montaj otaqları rəqəmsal çəkiliş avadanlıqları və kompyüterlərlə təmin edilmişdir.

Azərbaycan televiziyası bir çox cəhətdən zəngin olan auditoriyaya malik teleməkanda fəaliyyət göstərir. Əvvəllər alternativsiz yayım aparan AzTV indi müxtəlif statusa malik olan - "İTV" (2005) , "İdman Azərbaycan kanalı" (2009), "Mədəniyyət" (2011) kimi dövlət və "Spase" (1997), "Lider" (2000), "ATV" (2000), "Xəzər" (2007), "Region", "ARB" (2017 ) kimi özəl telekanallarla rəqabət şəraitində çalışır.

Bədii yayım televiziya proqramlarında geniş yer tutan, tamaşaçılarda bədii-estetik zövqün formalaşmasında səmərəli iştirak edən ekran materiallarıdır. Bu yayım növünün əsas vəzifələrindən danışarkən tamaşaçıları müasir milli və klassik, həmçinin dünya mədəniyyətinin parlaq nümunələri ilə tanış etmək, çoxmilyonlu auditoriyanı gözəllik aləminə qovuşdurmaq, onlara yüksək estetik zövq aşılamaq kimi vacib məsələləri necə, hansı bədii – estetik səciyyələrlə işıqlandırıldığını ön plana çəkmək lazımdır. Bədii yayıma əsasən, ədəbi-dram və musiqi verilişləri, qismən də uşaq və gənclər üçün verilişlər aiddir. Televiziya yarandığı gündən ədəbi dram verilişləri efirdə sabit yer tutduğundan yayımın bu növündə Azərbaycan televiziyası zəngin təcrübə toplayaraq müasir efir siyasətinin əsas istiqamətlərindən birinə çevrilə bilmişdir.

Ədəbi-dram verilişləri Azərbaycan ədəbiyyatının və milli mədəniyyətin, eləcə də dünya ədəbiyyatı və incəsənətinin ən yaxşı nümunələrini yaymaqla yanaşı, onların mənəvi aləminin daha da zənginləşməsi prosesində bilavasitə iştirak edir.

Bu gün televiziya həm məlumat vasitəsi, həm də sənət sahəsi kimi qəbul olunur. Burada jurnalistika və ədəbi-bədii yaradıcılıq bir-biri ilə qovuşuraq tamaşaçı auditoriyasına xidmət edir. Televiziya verilişləri vasitəsilə insanların dünyagörüşünü artırmaq və informatik məlumatlarını zənginləşdirmək mümkündür. Bu baxımdan Azərbaycan televiziyasında mövcud olan "Ədəbi-dram verilişləri" redaksiyası televiziyanın bədii-estetik mahiyyətinin əsasını təşkil edir.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **"Ədəbi-dram verilişləri müasir televiziya yayımının əsas elementi kimi: yeni dramaturji forma və estetik prinsiplər"**adlanır. Bu yarımfəsildə vurğulanır ki, milli ideyaların yaranmasında və inkişafında televiziya verilişlərinin rolu olduqca mühümdür. Televiziya verilişlərinin milli zəmində hazırlanması qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir və milli məzmunlu verilişlərin tamaşaçıya çatdırılmasında bədii ifadə vasitələrinin önəmli rolu vardır. Qeyd edilir ki, hələ keçən əsrin

ortalarından etibarən formalaşmağa başlayan Azərbaycan Televiziyasının fəaliyyət göstərdiyi ilk dövrlərdən efirdə yayımlanmış "Ədəbiyyat və incəsənət", "Azərbaycan ədəbiyyatının klassikləri", "Görkəmli səhnə ustaları", "Azərbaycan bəstəkarlarının portretləri", "Bizim qonaqlarımız" kimi verilişlərdə estetik dəyərlər önə çəkilirdi. Adlarından da göründüyü kimi, ədəbiyyat və incəsənətə həsr olunan bu verilişlər həmin dövrdə ciddi populyarlıq qazanmışdır. Təəssüf ki, bizdə həmin verilişlərin video yazısı qalmamışdır.

Ədəbi-dram verilişlərinin hazırlanmasını daim diqqət mərkəzində saxlayan Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin "Ədəbi-dram verilişləri" redaksiyası ədəbiyyat və incəsənət sahəsində tanınmış, eləcə də gənc şair və yazıçılarımızın təbliğinə xidmət edir. Bu redaksiya " Məclisi-üns", "Ozan", "Vətəndaş", "Qobustan", "Əbədi abidələr", "Zamanın sorağında" daimi verilişlər, il ərzində "Böyük ömrün davamı" film-tamaşası, "Qədim yurdun baharı", "Əbədi zirvə", "Danışır və göstərir Bakı!", "Tarixin yollarında", "Mətbuat fədaisi", "Ağ işığın möcüzəsi", "Doymadım bu dünyadan", "Bir ömrün xatirəsi" sənədli filmləri, "Əbədiyyət silsiləsindən" "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və Milli-mənəvi dəyərlərimiz", M.C.Paşayevə həsr olunmuş "Böyük fikrin karvanları" kimi verilişlər hazırlamaqla tamaşaçıların mənəvi cəhətdən zəhginləşməsinə müsbət təsirini göstərir.

Bunlarla yanaşı, ədəbi dram verilişləri redaksiyası tərəfindən hazırlanan "Ədəbi düşüncələr" telepritçasının M.Kazımbəy, S.Ə.Şirvani, Ş.I.Xətai, M.Ş.Vazeh, X.B.Natəvan, Q.B.Zakir, Heyran xanım, N.Hikmət, A.İldırım, Ə.Kərim və digər görkəmli şəxsiyyətlərə həsr olunan xüsusi buraxılışları tamaşaçılara təqdim edilib"[8]. Teatr və televiziya tamaşalarının təqdimatı haqqında olan "Bir ünvan milyon mənzil", sözün kökü və onun elmi-bədii mənalarının müqayisəli təhlili haqqında olan "Sözün sirri" kimi verilişlər də Azərbaycan televiziyasının "Ədəbi-dram verilişləri" baş redaksiyasında dəyərli yer tutur. Bu səpkili televiziya verilişlərin yayımlanmasında əsas məqsəd ədəbi dəyərlərin təbliği sahəsində önəmli işlər görmək və tamaşaçılarda yüksək estetik zövq formalaşdırmaqdır.

Dissertasiyanın bu yarımfəslində, eyni zamanda başqa kanalların da ədəbi-dram verilişləri təhlil olunur. Bunlardan hal-hazırda ictimai kanalda ekrana çıxan "Vətənin səsi", "Zirvədəkilər", "Teleportret", "Antrakt" kimi verilişləri misal göstərmək olar.

---

[8]Ədəbi-dram verilişləri redaksiyası. http://www.aztv.az/

Mədəniyyət kanalında Azərbaycan kinosunun tarixi haqqında olan "Kinosalnamə", televiziyanın fondunda saxlanılan teatr və televiziya tamaşaları, habelə ayrı-ayrı rejissorlar və aktyorların yaradıcılığı ilə bağlı "Teatr", görkəmli sənət adamları ilə səmimi sənət söhbəti əsasında qurulmuş "Sərbəst söhbət", ədəbi janrlar, incəsənətin müxtəlif növlərini əks etdirən, etno-mədəni qaynaqlarla ünsiyyət əsasında hazırlanan "Qobustan", "Zaman və Məkan" kimi ədəbi-dram verilişləri, görkəmli şəxsiyyətlərin xatirəsinə həsr olunan "Xatırlanan ömürlər", görkəmli rəssam və heykəltəraşların həyat və yaradıcılığını təsvir edən portret xarakterli "Palitra" adlı bədii verilişlər də televiziyanın estetik təsir gücünü artırmışdır.

Xəzər kanalında "Könül dünyamız", "Space" kanalında "Sənətsevər", "Qarşı qarşıya", "Lider" kanalında isə "Bakı vaxtı ilə" kimi verilişlər də özəl kanallarımızın məhsulu olaraq tamaşaçıların estetik zövqünün formalaşmasına xidmət edir.

Tədqiqat işində eyni zamanda göstərilmişdir ki, müasir dövrdə efirdə yayımlanan verilişlərin əksəriyyətində məzmunsuzluq, bayağılıq, primitiv dialoqlar, problemlərə kortəbii müdaxilə kimi hallara yol verilir.Tamaşaçı toplamaq xatirinə hazırlanan bu verilişlərdə ədəbi-bədii məsələlərə yanaşma tərzi aşağı səviyyəli problem kimi xarakterizə olunur. Xüsusilə özəl televiziya kanallarda yayımlanan bu verilişlərdə bəzi aparıcıların və ekspert qismində verilişə dəvət olanların əksəriyyətinin ədəbiyyat və incəsənət barədə anlayışı orta məktəb səviyyəsindən də aşağı olur. Dəfələrlə ictimaiyyətin ziyalı təbəqəsi tərəfindən tənqid olunmasına baxmayaraq yayımlanan bu verilişlər gələcəkdə bir sıra mənfi fəsadlara yol açaraq insanların bədii zövqünün korlanmasına gətirib çıxara bilər. Hər şeydən öncə bu tip verilişlərdə ədəbi dilimizin bayağılaşdırılması halları müşahidə olunur və milli mənəviyyatımıza zidd olan məsələlər müzakirə obyektinə çıxarılır.

Qeyd edilmişdir ki, insanların mədəni səviyyəsi artdıqca onların bədii estetik tələbləri də yüksəlir. Daha tələbkar olan müasir tamaşaçıları məzmunca dayaz, formaca sönük verilişlər təmin etmir. Hələ də teleməkanda bəzi rejissorlarımız tərəfindən zəif, sxematik, məzmunca bəsit verilişlərin hazırlanması təəsüf doğurur. Dövrümüz üçün səciyyəvi olan hadisələrə diqqət yetirilmir, hazırlanan verilişlərin bədii keyfiyyətlinə, materialın seçilməsinə və tənziminə, yığcamlığına, dil və ifadə səlisliyinə az fikir verilir. Çox vaxt mövzu təkrar olunur, rəvayətçilik, "uzunçuluq" kimi nöqsanlara yol verilir. Həqiqətdən uzaqlaşan müəlliflər, rejissorlar verilişlərin ictimai mənasına əhəmiyyət vermir. Buna görə də bədii

cəhətdən zəif verilişlər tamaşaçıların ideya-estetik tərbiyəsində təsirli rol oynaya bilmir.

Yarımfəslin sonunda vurğulanır ki, televiziya yaranan gündən ekrana çıxan və hazırda yayımını dayandıran ədəbi-dram verilişləri müasir televiziya yayımının əsas elementi kimi xüsusi əhəmiyyət kəsb edir.

Araşdırmanın birinci fəslinin **"Azərbaycan televiziyasının bədii verilişlərinin struktur xüsusiyyətləri: forma, məzmun və janr özəllikləri"**adlanan üçüncü yarımfəslində televiziyanın ədəbi-dram verilişləri janr, məzmun və forma prinsipləri estetik tələblər baxımından araşdırılmışdır. Bu gün televiziya hər bir ailə, hər bir şəxsin, o cümlədən hər bir ailənin dünyaya baxışının düzgün formalaşaması üçün mühüm pəncərə rolunu oynayır. Televiziya vasitəsilə ictimai rəyi formalaşdırmaq, insanları estetik baxımdan tərbiyə etmək mümkündür. İncəsənət barədə araşdırmalar aparan Kaqan yazırdı:"Televiziya mürəkkəb sintetik incəsənət növü kimi tətqiq edilmişdir." [9] Estetik tərbiyədə kütləvi ifadə vasitəsi rolunu oynayan televiziya istər-istəməz insanların şüuruna da nüfuz edir, onlarda estetik prinsiplərin formalaşmasına təsir edir.

Ədəbi-dram verilişlərinin janr və kompozisiya quruluşu ssenaridə əks etdirilən gerçəkliyin müxtəlifliyindən, həmçinin rejissor tərəfindən irəli sürülmüş estetik vəzifələrdən asılı olaraq inkişaf edir.Ədəbi-dram verilişlərinin hər biri özünəməxsus "üslub və janr" keyfiyyətlərinə malikdir.Yarımfəsildə vurğulanır ki, "Üslub əsərin forma və məzmununu birləşdirərək sturkturun estetik prinsipi kimi tədqiqat obyektinə müəllif münasibətinin ifadə vasitəsidir." [10] Portret janrlı, ədəbi-publisistik və ədəbi maarifçilik verilişləri televiziyada populyarlıq qazanıb.

Ədəbi verilişlərin strukturu və kompozisiyası tərtib edilən zaman darıxdırıcı və cansıxıcı bir səpkidə olmamalı, həmçinin tamaşaçıların maraq dairəsi və qavramaq qabiliyyəti də nəzərə alınmalıdır. Verilişin kompozisiyası ssenarinin sturkturu ilə təqribən eynidir. Məqsəd və ideya kompozisiyanın əsasını təşkil edir. Bədii verilişlər əsasən məzmununa və dramaturgiyasına görə qurulur. Tamaşaçıya inandırıcı görüntülərin, bilavasitə onlara təsir göstərəcək kadrların bədii reallıqla, zövqlü cazibədarlıqla verilməsi, süjet xəttinin cəlbedici, dinamik, mövzuya uyğun ritm ahəngində qurulması kimi amillər televiziya verlişlərinin strukturunun bütövlüyünü təmin edir. Sadalanan amillərin verilişin uğurlu alınmasında mühüm rol oynaması dissertasiyada əsaslandırılır.

---

[9]Каган М. Морфология искусства. Л., 1972, стр-374

[10]Лихачев Д. Поетика древнерусской литературы. М., 1979, стр.32

Ədəbi dram verilişlərinin ssenarisini hazırlayarkən fabulaya da diqqət yetirmək lazımdır. Çünki "fabula hərəkətin təqlid olunmasıdır. Fabula dedikdə, əhvalatların əlaqələnməsi, xarakterlər dedikdə, iştirak edən şəxslərin müxtəlif xasiyyətli olmaları, fikir dedikdə isə danışanların müəyyən bir şeyi nə ilə sübuta yetirmələri və ya sadəcə olaraq öz mülahizələrini söyləmələri nəzərdə tutulur."[11]. Fabulanı elə qurmaq lazımdır ki, televiziya verilişindən ayrıldıqda da baş verən hadisələr haqda deyilənlərə qulaq asan hər kəs əhvalatlar açıldıqca təsirlənsin.

Televiziya tamaşaları da ədəbi dram verilişləri redaksiyasının məhsulu kimi tamaşaçının dünyagörüşünün genişlənməsinə təkan verir. Bu baxımdan televiziyada ilk dəfə 1956-cı ilin iyulunda rejissor Rauf Kazımovskinin ekran quruluşu verdiyi Nəriman Nərimanovun "Şamdan bəy" əsərindən bir neçə epizodun göstərilməsi, daha sonra Məhərrəm Əliyevin "Sən gözəlsən", Süleyman Sani Axundovun "Laçın yuvası" pyesi və Mehdi Hüseynin "Səhər" romanı əsasında hazırlanmış tamaşalar televiziya auditoriyasının ixtiyarına verildi. 1960-cı illərin ortalarında "Şəlalə" televiziya teatrı yaradıldı. Həmin dövrdə Adil İsgəndərov, Məhərrəm Haşımov, Rauf Kazımovski, Ağəli Dadaşov, Arif Babayev, Lütfi Məmmədbəyov, Ağakişi Kazımov, İsmət Səfərəlibəyov, Tahir Tahirov, Kərim Kərimov kimi rejissorlar işə cəlb olunaraq sanballı teletamaşalar yaratmaqla televiziya teatrının inkişafına xidmət göstərdilər.

Bir sıra ekspertlərin "Rejissor pultunun Paqanini"si adlandırdığı Arif Babayev isə tamaşanı televiziya üslubunda hazırlayan ilk rejissor sayılır. O, Konstantin Paustovskinin povesti əsasında hazırladığı "Qar" teletamaşası ilə bu yeni üslubun əsasını qoydu. AzTV-də ilk sənədli publisistik veriliş Arif Babayevin 1959-cu ildə çəkdiyi "Dostluğun dili" adlanırdı. 60-ci illərdən başlayaraq isə "Bu Səttar Bəhlulzadədir" (müəllif Anar rejissor R. Axundov), "Üzeyir Hacıbəyov" (müəllif-rejissor K. Kərimov), "Bakı və Bakılılar" (müəllif C. Əlibəyov, rejissor N. Abbasov), "Bizim qadınlar" (müəllif M. Mikayılzadə, rejissor N. Yüzbaşov) və s. sənədli-publisistik verilişlər ekran təcəssümü tapdı.

Dissertasiyanın bu yarımfəslində televiziyanın inkişafında teletamaşaların çox böyük rolu olduğu vurğulanır. Məsələn, 70-80-ci illərdə Azərbaycan Televiziyasında Bünyad Məmmədov, Ramiz Həsənoğlu (Mirzəyev), Tariyel Vəliyev və digər rejissorlar öz fəaliyyətləri ilə diqqəti cəlb etdilər. "Ötən ilin son gecəsi", "Hər gecə saat 11-də", "Qonşu qonşu olsa", "Yollar görüşəndə", "Topal Teymur", "Ordan-burdan", "Evləri köndələn yar", "Yaşıl eynəkli adam" tamaşaları,"Səni axtarıram",

[11]Андроникова М.И. От прототипа к образу. М., 1974, стр.56

“Bağışla”, “Səndən xəbərsiz” film-tamaşası xüsusilə ictimaiyyət arasında geniş maraq doğurdu. Bu tamaşalardan aldığımız mənəvi zövq insan qəlbinə hakim kəsilir

1993-cü ildə televiziya teatrının inkişaf etdirilməsi məqsədilə yaradılan “Sabah” yaradıcılıq birliyi ( rəhbəri Ramiz Həsənoğlu) ilk dəfə olaraq Cəlil Məmmədquluzadənin “Kamança” pyesinin motivləri əsasında televiziya tamaşası hazırladı. Daha sonra “Ac həriflər”, “Anamın kitabı”, “Yurd yeri”, “6№-li palata”, “Məhbus”, “Şəkilçi”, “Bala, başa bəla”, “Kral ölür”, “Gecə”, “Qayalarda qalan səs”, “Yarımştat”, “Kleopatra”, “Fatehlərin divanı”, “Nigarançılıq”, “Dədə Qorqud”, “Yumurta”, “Nekroloq”, “Dəvətnamə” kimi geniş tamaşaçı kütləsinin sevimlisinə çevrilən tamaşalar sırasındadır.

Təəssüf ki, **son zamanlar** insanların estetik zövqünün inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb edən televiziya tamaşalarına lazımi diqqət yetirilmir.

Dissertasiyanın birinci fəslində Azərbaycan televiziyasında ədəbi dram verilişlərinin yaranması və inkişaf mərhələləri ümumiləşdirilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:

- Azərbaycan televiziyası yaranan ildən bəri ədəbi-dram verilişləri insanları maarifləndirmək prosesini vacib məqsəd kimi qarşıya qoymuş;
- Ədəbi-dram verilişlərinin təbliğində bədii yayımın əhəmiyyəti və rolu, bədii-estetik dəyəri və formaları müəyyənləşmiş;
- Müxtəlif səpkili və janrlı verilişlərin geniş tamaşaçı auditoriyası cəlb edə biləcək mövzu-problematikası öz həllinə çatmış;
- Azərbaycan televiziyasının ədəbi-bədii verilişlərinin forma, məzmun və janr özəllikləri öz bədii təcəssümünü tapmış:
-Azərbaycan televiziyasında televiziya tamaşalarının ekranlaşdırılması izahlı nümunələrlə verilmişdir.

Dissertasiyanın ikinci fəsli **“Ədəbi-dram verilişlərinin bədii-estetik xüsusiyyətləri”** adlanır. Bu fəsildə konkret verilişlər araşdırılmış, onların bədii-estetik cəhətləri, o cümlədən xüsusiyyətləri öyrənilmiş və elmi ümumiləşdirmələr aparılmışdır. Bu fəslin **“Ədəbi-dram verilişlərinin bədii-estetik və yaradıcılıq problemləri”** adı ilə təqdim olunan birinci yarımfəslində ədəbi dram verilişlərinin bədii – estetik dəyərindən, həmin verilişlərin hazırlanmasında yaxından iştirak edən yaradıcı heyətin rolundan bəhs edilir.

Burada, həmçinin bədii aləmi estetik, obrazlı dərk və əks etdirmək forması incəsənətin spesifik xüsusiyyəti kimi qeyd edilmişdir. Məhz bu xüsusiyyət onu ictimai şüurun digər formalarından fərqləndirir. Sözün dar mənasında bədiilik incəsənət əsərinin mükəmməllik elçisidir. Bədiilik

ayrıca bir keyfiyyət deyil, mükəmməllik səviyyəsinə çatdırılmış və incəsənət əsərinə xas olan keyfiyyətin məcmusudur. Bədiilik qayənin dərinliyini, təkrarolunmaz orijinallığını təmin edir. Bu qayəni ifadə etməyin mükəmməl formalarını, verilişin ssenarisinin aydınlığını, onun hər bir detalının işlənməsini, ideya və obrazların bədii cəhətdən əsaslandırılmasını, inandırıcılığını, həyat həqiqətlərinin təcəssümünü özündə birləşdirir.

Estetik tələbat çərçivəsində hazırlanan və yayımlanan bədii verilişlər televiziya estetikası, gözəllik, harmoniya qanunları üzərində qurulmalıdır. "Təəssüf ki, bugünkü efirdə etika və estetika elementlərindən məsələyə köklü yanaşma üçün deyil, sadəcə olaraq aparıcı üçün sərfəli mühit yaratmaq məqsədi ilə istifadə olunur"[12]. Bədiilik vasitəsilə fikir və ifadə qabiliyyəti tamaşaçıya aydın bir şəkildə çatdırılır. Televiziyada bədilliyin düzgün tənzimlənməsinə xidmət edən televiziya estetikası televiziyanı incəsənətin bir növü kimi tanıdan bir vasitədir. Həmçinin televiziya verilişlərinin hazırlanması üçün ən vacib olan təməl prinsiplərini, qaydalarını geniş şəkildə tədqiq edir.Təəssüf ki, ölkəmizin bəzi televiziya kanallarında hazırlanan ədəbi-dram verlişlərinin bədii-estetik dəyəri lazımi səviyədə deyil. Məsələn, hər şənbə saat 21:00-da Lider televiziyasında efirə gedən "Qum saatı" verilişi bu qəbildəndir. Verlişdə aparıcının ( Elçin Cahangirli) işlətdiyi bəzi ifadələr televiziya etikasına cavab vermir. Verilişdə səsləndirilən əksər mahnıların qeyri-peşəkar musiqiçilər tərəfindən ifa olunması, burada qoyulan problemlərə qeyri-ciddi münasibət müşahidə olunur. Hər həftə 45 dəqiqə ərzində efirə gedən həmin verilişdə lentə alınan yumoristik səhnəciklər o qədər də qənaətbəxş deyil. "Qum saatı"nın aparıcısı olan Elçin Cahangirlinin məzmundan kənar söhbətləri verilişin bədii dəyərinə qismən xələl gətirir.

Ədəbi-dram verilişlərinin bədii-estetik qayəsinin formalaşmasında yaradıcı heyətin əməyi böyükdür. Sözsüz ki, televiziya verilişlərinin həyata keçirilməsi prosesində məsuliyyət, ilk növbədə rejissorun üzərinə düşür. Belə ki,verilişin reallığı rejissor ideyasının reallığı deməkdir. Ədəbiyyat və incəsənət, dünya ədəbiyyatı və incəsənəti prosesində inkişaf getdikcə yeni-yeni ideyalar üzə çıxarır. Ədəbi-dram verilişləri hazırlayan rejissorların məqsədi və yaradıcılıq istiqaməti aydın olduğuna görə, həmin verilişlərdə ictimai mühitin xarakterik xüsusiyyətləri, zamanın səciyyəvi məqamları cəm olunmuşdur. Ədəbi dram verilişlərinin rejissorları əsasən yaradıcı prosesləri həyata keçirməklə redaksiyanın mövzu planının hazırlanmasında iştirak edir. Proqramın hazırlanması üzrə kompleks işləri yerinə yetirir, müəlliflərə iş prosesində ssenari üzrə yaradıcı köməklik göstərir. Çəkiliş qrupu ilə birlikdə rejissor ssenariləri hazırlayır və bu zaman müəllif fikrini

[12]Dadaşov A.Ə. Ekran publisistikası. Bakı: BDU, 1999, 104 s

düzgün əks etdirməyə çalışır. Çəkilişlərin məşqini, verilişlərin montajını, onların efirə müəyyən edilmiş vaxtda verilməsini təmin edir. Lazım olduqda pult arxasında işləyən rejissor redaktorla birlikdə hazır verilişi təhvil verir.

Televiziya yaranan gündən indiyə kimi müxtəlif televiziya rejissorları fəaliyyət göstəmişlər. Kərim Kərimov, Rauf Kazımovski, Ağəli Dadaşov, Arif Babayev, Kamil Rüstəmbəyov, Lütvi Məmmədbəyov, Ağakişi Kazımov, Ismət Səfərəlibəyov, Tahir Tahirov, Əmirhüseyn Məcidov, Rauf.Kazımovski, sonralar isə Bünyad Məmmədov, Ramiz Həsənoğlu, Tariyel Vəliyev, Ələkbər Kazımovski, Şərif Qurbanəliyev, Eyvaz Vəliyev, Tofiq Zeynalov, Akif Salamov, son illər isə İman Məcidov, Salam və İqbal Məmmədəliyev qardaşları, Cavid Təvəkkül kimi istedadlı televiziya rejissorlarının dəsti-xətti daha diqqətəlayiq olmuşdur.

Mükəmməl və baxımlı veriliş hazırlamaq üçün təkcə rejissorun deyil, ssenarinin də ona müvafiq olması vacibdir. Ssenaridə güclü informativlik, ictimai həyatın təhlili, obyektin əyaniliyini gücləndirmək məqsədilə ssenaristin dünyagörüşü hərtərəfli olmalıdır. "Ssenari gələcək filmin obrazlı kompozisiya-süjet xəttini müəyyən edən ədəbiyyat nümunəsi olmaqla yanaşı, pyes kimi xarakterik xüsusiyyətlərə malikdir[13]. Ssenaristlərdən A. İsgəndərov(Şvartskopf), Məhərrəm Əlizadə, Lütfi Məmmədbəyli (eyni zamanda rejissor), 1970-80-cı illərdə isə Anar Rzayev, Elçin Əfəndiyev, İsa Hüseynov, Gülcahan Güləhmədova və s. adlarını çəkmək olar.

Ədəbi dram verilişlərinin baxımlı və maraqlı olmasında operatorun professionallığı da əhəmiyyət kəsb edir. Operatorun kadrları düzgün qurması və ekranda görüntünün dəqiq verməsi nəticəsində veriliş bir az da orijinal olur. Aleksandr Çeçikov, Pircan Cəbiyev, Aydın Mansurov, Rafiq Quliyev, Eldar Məmmədov, Fəxrəddin Şahbazov, İzzət Əzizov, Seyidağa Mövsümov, Yusif Dadaşov, İsa Kazımov, Vahid Babayev, Tahir Atakişiyev, İzzətullah Əzizov, Bəxtiyar Əliyev, Fərman Nəbiyev, Elman Hüseynov, Eldar Abbasbəyli, hazırda isə Rəsad Nuriyev, Əli Əliyev, Fərid Bağırov, Rəşad Bağırov, Ziya Babayev kimi operatorlar nəsli məlumdur.

Televiziya rəssamlığı XX əsrdə meydana gəlmiş yaradıcılıq prosesi sahəsidir. O, teatr-dekorasiya, memarlıq və heykəltaraşlıq, dekorativ-tətbiqi sənət kimi müxtəlif sahələrinin birləşməsi nəticəsində formalaşmışdır. "O memardır və rəngkardır, inzibati-təsərrüfatçıdır. O, bütün peşələrə yiyələnməli, işıqlandırma texnikasını, günəş və süni işıqdan istifadə olunmasını, o cümlədən, optikanın xüsusiyyətlərini operatordan pis bilməməlidir. Bu və digər filmin canlandırdığı tarixi epoxanın stilini

---

[13]Васфельд И.В. Мастерство кинодраматурга. М., 1961, стр.172

rejissordan pis bilməməlidir"[14]. Televiziya rəssamı hər şeydən əvvəl istehsalatçıdır. O dekorasiya və ya natura seçməkdə rejissor və operaotra kömək etməlidir. Onun əsas fəaliyyəti verilişin təsvir obrazını formalaşdırmaqdır. Habil Kazımov, İbrahim İbrahimov, Rafael Əsədov, Oqtay Quliyev, Qurban Məlikov, Vaqif Məmmədov, Rafael Əlizadə, Rafiq Əbdülrəhimov kimi televiziya rəssamlarını misal çəkmək olar.

Ədəbi-dram verilişlərinin dilinin canlı olması tamaşaçı və dinləyici üçün həmin verilişlərin dilinin tədqiqi probleminin aktualığını daha da artırır. Ona görə də istər elm, təhsil, istərsə də maarifçilik mövzusunda olan verilişlərini dil normaları baxımından tədqiq etmək, üslub baxımından öyrənmək, bəzi nöqsanları aşkar etmək və onların aradan qaldırılması üçün səmərəli təkliflər vermək mütləqdir. Tamaşaçılar qarşısında çıxış edən televiziya işçiləri Azərbaycan dilində nə qədər səlis, gözəl, mədəni danışsalar, o qədər də hər bir Azərbaycan vətəndaşı öz dilini sevəcək, həmin televiziya verilişlərindən özləri üçün nümunələr götürəcək və öz dilini inkişaf etdirəcəkdir. Bu televiziya işçiləri qarşısında duran çox böyük vəzifədir.

1956-cı ilin mayında ekranda ilk diktorlar göründü. Məsələn, Tamara Gözəlova, Nailə Mehdibəyova, Sevda Qənizadə, Sara Manafova, Rəna Nəsirova, Rəxşan Aslanova, Sima Xasıyeva, Nizami Məmmədov. Daha sonra televiziyada istedadlı diktorlar nəsli yetişdi: Roza Tağıyeva, Rafiq Hüseynov, Ofelya Sənani, Şərqiyyə Hüseynova, Sabir Ələsgərov, Hicran Hüseynov, Həqiqət Əsgərova, Natəvan Hacıyeva, Tamilla Ələkbərova, Davud Əhmədov, Gülşən Əkbərova, Nərgiz Cəlilova, Ülkər Quliyeva, Aygül Qaradağlı, Dilarə Səlimova, Rafiq Həşimov.

Bu yarımfəsildə daha sonra göstərilir ki, ədəbi-dram verilişlərin görüntü probleminin bir hissəsini aradan qaldırmaq üçün düzgün və məzmunlu montaj işindən istifadə olunmalıdır. Dram verilişlərinin hazırlanması zamanı rejissor süjetin təsvirinə diqqət yetirməli, verilişin tempsiz, ləng alınmasına fikir verməməlidir. O, montaj zamanı görüntünün dinamikalı, estetik cəhətdən məzmunlu olmasına fikir verməli, keçidlərin vaxtında, nitqin tempinə uyğun, mövzudan mövzuya keçidlə səsləşən bir tərzdə olmasına nail olmalıdır. Montaj vaxtı montajın ritmini müəyyən etmək olduqca vacibdir. Hazırlanan verilişin məzmunlu, keyfiyyətcə yüksək, həmçinin maraqlı tərzdə təqdimatı üçün kadrarxası mətnin publisistik gücündən, çəkiliş zamanı kadr bolluğundan və montaj zamanı rejissorun fantaziyasndan asılıdır. Ədəbi-dram verilişlərinin estetik həlli rejissorun üzərinə düşür. Janr tələblərinə uyğun bitkin kompozisiyanın qurulması, süjetin uyğunluğu verilişin zövqlü çəkilməsinə imkan verir.

[14]Козловски С. и Колин Н. Художник-архитектор в кино. М, 1930

İkinci fəslin ikinci yarımfəsli **"Ədəbi-dram verilişlərində bədii zövqün formalaşdırılması və maarifçilik problemləri"** adlanır. Bu yarımfəsildə Azərbaycan televiziyasında yayımlanan ədəbi-dram verilişlərinin bədii zövqün inkişafında oynadıgı rol, onun elmi-nəzəri əsasları araşdırılır, eləcə də verilişlərin maarifçilik problemlərinə də toxunulur.

Estetik zövqün tərbiyəsində mədəniyyət və incəsənət nümunələrinin, yəni ədəbi-maarifçilik janrlı verilişlərin əhəmiyyəti misilsizdir. Bütün bunlar insan psixologiyasının dərin, incə sahələrinə nüfuz edir, insanların mənəvi simasını formalaşdırır, onları bir-birinə yaxınlaşdırır və ideyaca daha da zənginləşdirir. Verilişlərdə mütərəqqi ideyalar insanın bütün hisslərinə, şüuruna, dünyagörüşünə emosional cəhətdən güclü təsir edir, onları qabaqcıl ideyalarla silahlandırır, xarakter və əqidələrini formalaşdırır, həyatı real surətdə dərk etmək və dəyişdirmək yollarını öyrədir. Hər bir maarifçilik yönümlü veriliş insanların gerçəkliyə estetik münasibətini yüksəldir, onu əxlaqi və mənəvi cəhətdən tərbiyə edərək kamilləşdirir.

Televiziya maarifçilik ənənələrinin birbaşa forması kimi digər maarifçilik işləri aparan digər sahələrdən tamamilə fərqlənir. Bu baxımdan televiziya verilişlərində xalqın maarifləndirilməsinə xüsusi yer ayrılmalıdır. Digər təbliğat vasitələrindən fərqli olaraq televiziya verlişləri daha kütləvi olmaqla yanaşı, canlı şəkildə bilavasitə təsir göstərmək gücünə malikdir. Azərbaycan televiziyalarında hələ ilk dövrlərdən maarifçilik istiqamətində böyük təbliğati işlər və müəyyən ənənələr formalaşmışdır.

Ədəbi dram verilişlərinin bir janrı da ədəbi maarifçilik verilişləridir. Ədəbi maarifçilik verilişləri eyni zamanda maarifçi-tədris funksiyasını da yerinə yetirir. Maarifçilik verilişlərinin ekran təcəssümü kifayət qədər ciddi və əhəmiyyətlidir. Yayımı həyata keçirən veriliş yaradıcıları tamaşaçının zövqünü dəyərləndirməklə onun istəyinə və günün dinamik dəyişkənliyinə uyğun bir tərzdə verilişlər hazırlamalıdır. Əks halda, hər bir tamaşaçı başqa kanalda daha maraqlı veriliş axtarışına çıxa bilər. Tamaşaçı maarifçilik yönümlü hər hansı verilişə baxmaqla müəyyən qədər də olsa, faydalanmalıdır. Azərbaycanda bu vəzifə hal-hazırda müxtəlif kanallarda nümayiş etdirilən ədəbi-maarifçilik mövzusunda olan verilişlərin üzərinə düşür.

Azərbaycan Dövlət televiziyasında (AzTV) redaksiya tərəfindən ) bu istiqamətdə hazırlanan verilişlər "Təhsil və tərəqqi", "Daş nağılı", "Vernisaj", "Sərbəst söhbət", "Teatr", "Bir ünvan milyon mənzil", "Maraq dünyası", "Nurdan zərrələr", "Ana dili", "Kino ulduzları", "Yaşıl orman", "Çarpaz boyalar", "Şəxsən siz", "Əbədiyyat yolçusu" tamaşaçı auditoriyasının maarifləndirilməsində mühüm rol oynayır. Eyni zamanda

bu verilişlər vasitəsilə müxtəlif yaş təbəqəsinə malik olan tamaşaçılar maarifləndirilir və  aparılan analitik şərhlərlə dünyagörüşünü daha da genişləndirirməyə nail olurlar.

Müşahidələr göstərir ki, dövlət büdcəsindən maliyyələşən İctimai Televiziya (İTV) da öz missiyasına uyğun olaraq geniş tamaşaçı auditoriyasının maarifləndirilməsində və insanların bədii zövqünün inkişafında əhəmiyyətli rol oynayır. Hazırda bu telekanalda efirə gedən "Biri var imiş, biri yox imiş" verilişi uşaqlar üçün nəzərdə tutulub. Uşaqlara maraqlı məlumatlar, nağıllar, hekayələr danışılır. Bu baxımdan veriliş uşaqlara maarifləndirici təsir edir. Milli qəhrəmanlar və şəhidlərin xatirəsinə həsr olunan "Heç kim unudulmur, heçnə yaddan çıxmır" verilişində onların keçdiyi həyat yolu əks olunur. Döyüş yoldaşları, ailə üzvləri burada onlar haqqında xatirələrini bölüşür. "Elm üçbucağı" isə Şərq dünyası tarixi, İntibah dövrü,  görkəmli alimlərdən bəhs edən verilişdir. Belə  proqramlar tamaşaçıları həm lazımi şəkildə maarifləndirir, həm də insanlara bədii zövq verir.

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət "Mədəniyyət" kanalı tərəfindən yayımlanan televiziya proqramlarında da maarifçilik aspektləri üstünlük təşkil edir. Bu kanalda efirə gedən "Zəka nuru" verilişi  milli mədəniyyətimizin müxtəlif sahələrinə yeni baxış nümayiş etdirir. Proqramın tərkibində "Kitab köşkü" rubrikası da mövcuddur. Bundan başqa, "Maraq dünyası" - məşhur kolleksiyalar haqqında, "Keçmişdən gələcəyə" isə  etnoqrafik milli-mənəvi dəyərləri təbliğ edən verilişlərdir. Sözün kökü və onun elmi-bədii mənalarının müqayisəli təhlilin aparan "Sözün sirri" , dünya kino xadimlərini yaradıcılığına həsr olunan "Kino ulduzları", Azərbaycan kinosunun tarixindən bəhs edən "Kinosalnamə", görkəmli şəxsiyyətlərin doğum günlərində onlarla bağlı ensiklopedik məlumatlar verən "Xatırlanan ömürlər" televiziya verlişləri də tamaşaçıların maarifləndirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir.

Özəl kanallardan biri olan ATV-nin maarifçilik istiqamətli verilişləri içərisində "Geriyə baxanda" verilişi  müxtəlif sənət sahiblərinin - yazıçı,  şair və ya  aktyorların həyatından bəhs edilir. Müsahibə formasında çəkilmiş bu verilişdə mövzu səbəbkarın dilindən verilir. ATV kanalında yayımlanan "Çox gəzən bilər"  verilişi Azərbaycanın ilk avtoturne proqramıdır. Proqramın əsas məqsədi  dünya ölkələrinin ən gəzməli və görməli yerlərini, mədəniyyətlərini, adət-ənənələrini, mətbəxlərini Azərbaycan tamaşaçısına çatdırmaqdır.

Yarımfəslin sonunda bu qənaətə gəlinir ki, televiziya kanallarında nümayiş etdirlən maarifçilik verilişləri tamaşaçı auditoriyası üçün

zərurudir. Həmin səpkili verilişlər insanların düşüncə qabiliyyətini formalaşdırır, estetik zövqünü inkişaf etdirir, eyni zamanda mədəni tərbiyə funksiyasını yerinə yetirir. Gənc nəslin hərtərəfli inkişafına kömək edərək ümumbəşəri duyğular aşılayan, onları vətəndaşlıq, yüksək ideyalılıq ruhunda tərbiyələndirə bilən belə yönümlü verilişlərin əhəmiyyəti böyükdür. Bu verilişlər yalnız ideyaca deyil, üslub xüsusiyyətləri ilə də insanların estetik tələbatına cavab verməlidir.

İkinci fəslin **"Televiziyanın bədii-əyləncəli və musiqili verilişlərinin təqdimatında yeni forma axtarışları"** başlıqlı üçüncü yarımfəslində belə bir baxış üstünlük təşkil edir ki, musiqili-əyləncəli verilişlərdə daima yeni forma axtarışları olmalı və bu da mütləq bitkin məzmunla insanların estetik zövqünü oxşamalıdır. İnsanların estetik zövqünün formalaşmasında musiqinin tərbiyəvi əhəmiyyəti böyükdür. Musiqi insanı mənəviyyatca təmizləyir, onda güclü müasirlik duyğusu yaradır. Milli musiqimiz bir çox özünəməxsus xüsusiyyətləri ilə ahəng quruluşuna, tembrinə, ritminə və alətlərin səslənməsinə görə digər xalqların musiqisindən fərqlənir.

Məlumdur ki, ilk vaxtlar Azərbaycanda televiziyanın əsasını xəbərlər və ədəbi bədii verilişlər təşkil edib. Bədii poqramların əsası ədəbi-dram və musiqidir. Sonradan folklor, publisistika, teletamaşalar, musiqili verilişlər ədəbi-dram redaksiyasının nəzdində fəaliyyət göstərirdi.

Musiqi mədəniyyətini təbliğ edən televiziya verilişlərində Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, Soltan Hacıbəyovun, Arif Məlikovun, Aqşin Əlizadənin teleşirkətin fonotekasında saxlanan əsərlərinə həmişə müraciət olunur. Azərbaycan bəstəkarlarının simfonik və digər əsərləri milli koloritdə yazıldığından tarixi və lirik verilişlərlə olduqca həmahəng səslənir. Üzeyir Hacıbəyovun "Sənsiz", "Sevgili Canan" romanslarını, "Leyli və Məcnun" operasını, Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", "Lay-lay" əsərlərini, Arif Məlikovun "Məhəbbət əfsanəsi" və "Altıncı simfoniya" sını, Fikrət Əmirovun "Azərbaycan Kapriççosu"nu, "Şur", "Kürdovşarı" simfonik muğamlarını, Soltan Hacıbəyovun "Karvan" suitasını, Hacı Xanməmmədovun "Tar ilə orkestr" üçün 1-ci və 2-ci konsertini "Arfa ilə orkestr konsert"ini misal gətirmək olar. Ölkəmizin əvəzolunmaz sərvətlərdən olan xalq və bəstəkar musiqisi istər teatda, istər kinoda və istərsə də televiziyada istifadə olunur. Çunki musiqisiz teatrı, kinonu və televiziyanı təsəvvür etmək qeyri mümkündür. Televiziyamızda digər verilişlər kimi ədəbi dram verilişlərində də musiqi çox önəm daşıyır.

Bu yarımfəsildə həmçinin vurğulanır ki, ilk bədii musiqili - əyləncəli veriliş 1957-1958-ci illərdə ekrana çıxan "Bakının teatr və konsert salonlarında" verilişi olmuşdur. Bu zaman həmin verilişlərdə müğənnilərin

konsertləri və teatr tamaşaları çəkilib tamaşaçılara təqdim olunurdu. İllər keçdikcə televiziya istər texniki, istərsə də işçi qüvvəsi cəhətdən inkişaf edərək təkmilləşdi və müxtəlif verilişlər yaranmağa başladı.

Xalq artistləri Leyla Bədirbəyli və Lütfi Məmmədbəyovun təqdimatında ilk dəfə 1973-cü ildə musiqili əyləncəli "Səhər görüşləri" verilişi ekrana çıxdı. O vaxta qədər Azərbaycan televiziyasında bu səpkili səhər proqramları formalaşmamışdı. Bu veriliş rəngarəng musiqisi, yumoristik səhnəcikləri, vaxtaşırı dəyişən aparıcıları və zövqlə seçilmiş çəkiliş yerləri ilə ilk dəfədən tamaşaçıların rəğbətini qazana bildi. 1980-ci ildən sonra "Məktəblilərin rəqs salonu", Vaqif Səmədoğlunun "Caz aləmində", Mehdi Məmmədovun "Rampa", Xudu Məmmədovun "Evrika", Kamal Abdullanın "Qoşma", Aleksandr Qriç və İntiqam Qasımzadənin "Bayatı" kimi bədii-musiqili verilişlər tamaşaçıların böyük marağına səbəb olmuşdur.

Bununla bərabər müxtəlif kanallarda hal-hazırda bir çox musiqili verilişlər fəaliyyət göstərir. Qeyd edilir ki, "İctimai" kanalda "Caz saatı", "Soundtrak", "Oberton", "Dünya musiqisinin ulduzları", "Antrakt" kimi verilişlər ekran estetikasına uyğun hazırlanmışdır. Bundan əlavə - "Unudulmaz ifalar, "Fərqli Alim" ,"Sevgi dünyamız" ,"Ulduzlar sönmür", "Bir mahnının tarixçəsi", Mədəniyyət kanalında isə "Ovqat" musiqili- bədii verilişlər silsiləsindəndir. Belə səpkili verilişlər insanların mənəvi dünyasının zəginləşməsinə xidmət edərək görüntü və mövzu baxımından tamaşaçıların zövqünü oxşayır.

Dövlət kanalllarımızla yanaşı özəl kanallarımızın da proqram tərtibində əyləncə xarakterli verilişlər bloku əsas yerlərdən birini tutur. Özəl kanallarımızda efirə çıxan verilişlərdən - "Spase" kanalında "Yerimdəyəm", "Sevimli mahnı", "Banu", "Hər səhər", "Xəzər" TV-də "Hər şey daxil", "5 də 5", "Xəzər səhər", "Evdəkilərə salam", "ATV"– də "Bizimləsən", "Zaurla Gunaydın", "10 dan sonra", "Nanəli", "Məlahətli söhbətlər", "Stand up", "Bir axşam" və s. müsiqili-əyləncəli xaraklerli proqramlardır. Lakin bu verilişlərin, demək olar ki, hamısında özünəməxsus nöqsanlar mövcuddur. Xarici ölkələrin teleməkanalındakı əyləncəli verilişlərə baxanda "yerlə göyarası" deyilən fərqi duymaq olur. İstər aparıcılarda, istər iştirakçılarda intellektual səviyyə müşahidə olunur. Dünya televiziyalarında əyləncəli kommersiya verilişləri əsasən tanınmış müğənnilər və sənətkarlar tərəfindən aparılır. Bu verilişlər musiqinin iştirakı əyləncə funksiyasını önə çəksə də burada dramaturji struktur hadisəlilik prinsipi üzərində qurulur. Bu tipli verilişlərdə məşhur sənətkarın iştirakı dramaturji funksiya daşıyır. Bizim teleməkanda isə tanınmış sənətkarların apardığı verilişlərin qonaqları da əsasən yaradıcı şəxslər olur. Belə verilişlərin dəqiq ssenarisi və mövzu həlli olmadığından ekrandakılar

bir-birinin şəninə yerli-yersiz təriflər söyləyir və mahnı oxumaqla kifayətlənirlər. Nəticədə veriliş istər-istəməz monoloji mətnlə növbələnmiş konsertə bənzəyir. Təbii ki, bu intellektual əyləncəli verilişlərin bütün aparıcıların hamısına aid deyil.

Belə bir nüans da mövcudddur ki, ölkəmizdə özəl televiziya kanalları vasitəsilə yayımlanan ədəbi-dram və musiqili-əyləncəli verilişlərin əksəriyyəti xarici ölkələrin televiziya kanallarında hazırlanan verilişlərin formatına və məzmununa uyğun gəlməklə onları təkrar edir. Belə ki, xarici ölkələrdə yayımlanan ədəbi verilişlər milli mənəviyyatımıza, menalitetimizə ziddir. Bu baxımdan da xarici ölkələrin telekanalllarında yayımlanan verilişlərin efirə çıxarılması arzuolunmazdır. Dövri mətbuatda, saytlarda bununla əlaqədar olan tənqidi fikirlərə baxmayaraq belə verilişlərin yayımları hələ də davam etdirilir.

Xarici ölkələrin milli mentalitetinə müvafiq olan bu verilişlər milli-mənəvi dəyərlərimizə zidd olması ilə yanaşı onların aparıcılarının ümumi dünyagörüşününün lazimi səviyyədə olmaması diqqəti cəlb edir. Adətən bu verilişlərin bir çoxu şou xarakteri daşımaqla qalmaqal yaratmaq məqsədini güdür.

Qeyd edilir ki, bu gün bütün telekanallarda musiqili-əyləncəli verilişlər tamaşaçılar tərəfindən daha çox baxılır. Bəzi kanallarda əyləncəli verilişlər xüsusi bir çərçivədə efirə gedir, bəzilərində isə bir qədər "çılpaqlığı ilə" tamaşaçılara təqdim olunur. Bu gün Azərbaycan televiziyası yeni sistem yaratmaq sahəsində irəliyə doğru addımlayır.

Dissertasiyada müsbət cəhətlərlə yanaşı, həmçinin müəyyən nöqsanların mövcudluğu da göstərilir. Nöqsanlardan nəticə çıxararaq televiziyanın məsul işçiləri qarşısına müsiqili-əyləncəli verilişləri yüksək sənətkarlıq tələbləri səviyyəsinə qaldırmaq üçün yeni forma və məzmun axtarışlarına və bədiiliyin ifadə zənginliyinə daha çox diqqət yetirməsi kimi vəzifələr qoyulmalıdır. Beləliklə, gələcək illərdə Azərbaycan telekanalları nəinki ölkəmizdə, həmçinin sərhədlərimiz xaricində dünyanın aparıcı telekanalları ilə mübarizəyə qoşularaq, ən öndə gedən kanallar səviyyəsində fəaliyyət göstərməyə çalışmalıdır.

Dissertasiyanın son bölümü olan ədəbi-dram verilişlərinin bədii-estetik xüsusiyyətlərinin araşdırılması aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- XX əsrin ikinci yarısından başlayaraq televiziya sənəti milli mədəniyyət prosesində fəal iştirak edən, ictimai-sosial, siyasi, mənəvi-əxlaqi dəyər daşımaq gücü qazanan, özünün yaradıcı axtarışları, yenilikləri ilə seçilən incəsənət növü kimi mühüm ictimai vəzifələrlə insanların həyatına daxil ola bildi.

- Televiziyaya özünün mütərəqqi yaradıcı istiqamətinin, yeni audiovizual janrların yaranışı, sənət növlərinin birləşməsində üzə çıxardığı bədii yaradıcılıq nümunələri ilə bu sənətə yalnızca KİV kimi yanaşma rəyinin yanlışlığını, ona incəsənət növü kimi dəyər verməyin və sənətşünaslığın predmeti kimi yanaşmanın daha doğru olmasını sübut etdi. Bununla da televiziya özünün maarifçilik funksiyasını bədii-estetik dəyərlər çərçivəsində yerinə yetirmiş oldu.

- Bədii musiqili-əyləncəli verilişlər televiziyanın yayımı proqramlarında geniş yer tutan, efirin spesifik imkanlarına məharətlə yiyələnərək gerçəkliyi sənətə xas olan forma-məzmun vəhdətində əks etdirən və tamaşaçılarda bədii-estetik zövqün formalaşmasında fəal rol oynayan materiallardır.

- Televiziya yarandığı gündən ədəbi dram verilişləri efirdə sabit yer tutduğundan yayımın bu növündə Azərbaycan televiziyası zəngin təcrübə toplayaraq müasir efir siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

- Ədəbi-dram verilişləri Azərbaycan ədəbiyyatını və milli mədəniyyətinin, dünya ədəbiyyatı və incəsənətinin ən parlaq nümunələrini televiziya estetikasında tamaşaçılara çatdırır. Bununla da tamaşaçıların dünyagörüşünün formalaşmasında, mənəvi aləminin daha da zənginləşməsi prosesində bilavasitə iştirak edir.

- Ədəbi verilişlərin proqram üzrə sturukturunda həmin televiziya verilişlərinin bölmələr və rubrikalar üzrə düzgün paylanılması, həmçinin onlar arasında əlaqənin yaradılması kimi mühüm amillər nəzərdə tutulur. Verilişlərin sturukturunda dövrilik prinsipinə dəqiqliklə əməl etmək böyük əhəmiyyətə malikdir.

- Televiziya mədəniyyət və elm sahəsində maarifçiliyin bütün növlərini sintez etməyə qadir universal vasitədir. Universallıq isə öz növbəsində yaradıcı fəallığın inkişafı, əqli bacarığın artırılması kimi mürəkkəb məsələlərin peşəkarcasına həll olunmasına imkan yaradır. Bu gün maarifləndirmək deyəndə ilk növbədə uşaq, yeniyetmə və gənclərin əqli maraqlarının fəallaşdırılmasına şərait yaradılması, rasional yaddaş priyomlarının formalaşdırılması, nitqin inkişafı nəzərdə tutulur. Bütün bunlar da məhz TV ilə öz real həllini tapa bilir.

- Azərbaycan televiziyasının ədəbi-dram verilişlərinin təşəkkülünu, inkişaf mərhələlərini, perspektivlərini təhlil etdikcə belə qənaətə gəlinir ki, ədəbi-dram verilişləri yaranışının ilk illərindən maarifçilik ideyalarına, elm və mədəniyyətin bütün sahələrinə sıx bağlı olsa belə, öz funksional qanunlarına və bədii-estetik meyarlarına daha çox sədaqət nümayiş etdirmişdir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat zamanı əldə edilmiş yekun qənaətlər ümumiləşdirilir. Yekunda olan fikirlər dissertasiya işinin bütün mahiyyətini özündə ehtiva edir.

**Dissertasiyanın əsas nəticələri iddiaçının aşağıda adları qeyd olunan nəşrlərində ümumiləşdirilmişdir:**

1.“Ədəbi-dram verilişlərinin estetik problemləri”. //“Mədəniyyət: problemlər və perspektivlər”. Bakı, 2006, s.59.

2. “Televiziyada ədəbi portretlər”. //“Mədəni-Maarif”. 2007, s.44-45.

3. “Heydər Əliyev və Azərbaycan teatrı”. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” V Beynəlxalq elmi konfransının materialları. Bakı, 2013, 5-7 may 2014, s.4-5.

4. “Kütləvi informasiya vasitələrində türkdilli xalqların mədəniyyəti”. //“İncəsənət və mədəniyyət problemləri”. Beynəlxalq elmi jurnal. Bakı, 2014, №1 (47), s.168-172.

5. “Heydər Əliyev və Azərbaycanın sənət adamları”. //“İncəsənət və mədəniyyət problemləri” Beynəlxalq Elmi Jurnal. Bakı, 2013, №2 (44), s.98-104.

6. “Kütləvi informasiya vasitələrində türkdilli xalqların mədəniyyəti”. //“Türkoloji sənətşünaslıq: Problemlər və perspektivlər. III Beynəlxalq elmi konfransının tezisləri. Bakı, 2013, s.79-81.

7. “Azərbaycan televiziya verilişlərinin müasir informasiya cəmiyyətində rolu”.(Role of Azerbaijan broadcast in modern infor-mation society). ASOS JOURNAL The Journal of Academic Social Science 9. Yıl 2016, 4 sayı (38), s.361-366.

8.“Müstəqillik illərində Azərbaycan televiziyası”. //“İncəsənət və mədəniyyət problemləri”. Beynəlxalq Elmi jurnal Bakı, 2017, №4 (58), səh .122-125.

9. “TV-musiqi və əyləncə güzgüsü”. “Qobustan” incəsənət toplusu. Bakı, 2017, № 4, s.66-68.

10.“Azərbaycan televiziyasında musiqili-əyləncəli verilişlərin təqdimatında yeni forma axtarışları”. //“Musiqi dünyası” Beynəlxalq elmi jurnal, 2017, 4 (73), s.87-89.

11.“The history of the development of the Azerbaijan television”.Международная научно-практическая конференция «Духовность и современная культура». Санкт-Петербург, 2017, s.140-147.

12.“Azərbaycan televiziya kanallarında maarifləndirici verilişlərin əhəmiyyəti” . //“Mədəniyyət dünyası” , XXXIV, 2018, s.103-109.

13. Ədəbi-dram verilişlərinin estetik problemləri (monoqrafiya). Bakı, “Müəllim” nəşriyyatı 2015, 52 səh.

## Структурные проблемы в литературно-драматических передачах на азербайджанском телевидении


## Резюме

Диссертационная работа состоит из введения, шести подглав в двух главах, заключения, списка литературы и видеографии. Актуальность темы обуславливается исследованием структурных проблем литературно-драматических передач на азербайджанском телевидении и превращением этих проблем, изучаемых в научно-теоретическом контексте в объект широких исследований.

Первая глава под названием **«Создание и этапы развития литературно-драматических передач на азербайджанском телевидении»** состоит из трех подглав. Первая подглава называется **«Роль художественного вещания в развитии телевизионного творчества и экранного искусства».** Здесь особо подчеркнута роль художественного вещания в экранном искусстве.

Вторая подглава первой главы диссертации называется **«Литературно-драматические передачи как основной элемент современного телевизионного вещания: новая драматургическая форма и эстетические принципы».** В этой подглавеговорится о создании литературно-драматических передач и об их роли и позиции в современном телевизионном вещании.

В третьей подглаве первой главы под названием **«Структурные особенности художественных передач Азербайджанского телевидения: особенности формы, содержания и жанра»** исследуются телевизионные литературно-драматические передачи с точки зрения эстетических требований,принципов жанра, содержания и формы.

Вторая глава диссертации называется **«Художественно-эстетические особенности литературно-драматическихпередач».** В первой половине второй главы, названной **«Художественно-эстетические проблемы литературно-драматическихпередач»,** речь идет о проблемах художественно-эстетического вида и творческомсоставе литературно-драматических передач.

Вторая подглава второй главы названа **«Формирование художественного вкуса в литературно-драмматических программах и проблемы просвящения».** В этойподглаве подчеркивается роль литературно-драматических передач, транслируемых по Азербайджанскому телевидению в развитии художественного вкуса, исследуются научные и теоретические основы, а также выдвигаются важные ценности для просвятительных проблем.

В третьей подглаве второй главы, названной **«Поискиновой формы в презентации литературно-драматических и музыкально-развлекательных передач телевидения»** преобладает мнение о том, что в музыкально-развлекательных программах всегда долженбыть поиск новых

форм, удовлетворяющий эстетический вкус людей абсолютно завершённым содержанием .

**В итоге,** исследованиеи изучение структурных проблем литературно-драматических передач на азербайджанском телевидении, представленныев виде фундаментальной работы в научно-теоретическом контексте проблемы является актуальным вопросом.

**Structural problems of the literary drama programs on Azerbaijan TV**

**Summary**

The dissertation consists of introduction, six paragraphs, two chapters, conclusion, reference and videography. Studying the structural problems of literary-dramatic programs on Azerbaijan television and the fact that this problem is investigated in a scientific-theoretical context and being the subject of issue transformed into a large research object.

The first chapter, titled **«Creation and Development Stages of Literary-Drama Broadcasts in Azerbaijan TV»** consists of three paragraphs. The first paragraph is named **«The role of artistic broadcasting in the development of television creativity and screen art».** Here especially highlighted the role of artistic broadcasting in screen art. Featured broadcasting noted as one of the main trends of modern transmission.

The second paragraph of the first chapter of the dissertation named as **«Literary-dramatic broadcasts as a basic element of modern television broadcasting: a new dramatic form and aesthetic principles»** In this paragraph provides the role and position of literary drama programs and contemporary television broadcasting.

In the third paragraph of the first chapter, **«The Structural Features of Azerbaijani Television Broadcasting: form, content and genre peculiarities»,** were studied viewpoint of television literary-dramatic broadcasts in terms of genre, content and form of aesthetic requirements.

The second chapter of the dissertation is called **«Artistic-Aesthetic Characteristics of Literary-Drama Broadcasting».** In the first paragraph of the second chapter, entitled **«Artistic-Aesthetic Problems of Literary Drama Broadcasting»,** deals with the artistic aesthetic picture problems of literary drama programs and creative staff of literary drama programs.

The second paragraph of the second chapter is entitled **«Formation of artistic taste in literary and dramatic programs and problems of enlightenment».** In this paragraph, are investigated the role of artistic taste in the development of the literary-drama programs broadcast on Azerbaijani television highlighted the scientific and theoretical foundations, and problems of important values for educational programming.

In the conclusion, the study of the structural problems of literary and dramatic programs in the Azerbaijani TV and their scientifically-theoretically investigation presented as the urgent problem in the work.

Format 60x84 $^{1}/_{16}$

AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВА**

---

*На правах рукописи*

**АЙГЮН РАФИГ кызы БАГИРОВА**

# СТРУКТУРНЫЕ ПРОБЛЕМЫ В ЛИТЕРАТУРНО-ДРАМАТИЧЕСКИХ ПЕРЕДАЧАХ НА АЗЕРБАЙДЖАНСКОМ ТЕЛЕВИДЕНИИ

**Специальность: 6214.01- “Кино, теле и другии экранные искусства ”**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии в области искусствоведения

**БАКУ - 2018**